**TİPOLOGİYA 2. Xarici ölkə vətəndaşının həmin ölkə bankına məxsus kart məlumatlarının oğurlanması nəticəsində ona məxsus pul vəsaitlərinin onlayn ödəniş sistemi vasitəsilə yerli ölkənin bank kartlarına köçürülərək nağdlaşdırılması**

"B" xarici ölkəsinin "ABC" bankının müştərisinə məxsus "X" kartının məlumatlarının oğurlanması əsasında oradakı vəsaitlərin "ABC Pay" onlayn ödəniş sistemi vasitəsilə "A" ölkəsinin vətəndaşı olan "FM" adlı şəxs və onunla əlaqəli beş şəxsin "A" ölkəsinə məxsus "Bank 1" və "Bank 2" banklarındakı kart hesablarına köçürülmüşdür.

Qeyd edilən şəxslərin "Bank 1" və "Bank 2" banklarına məxsus kart hesablarına köçürülmüş vəsaitlərin cüzi hissəsi "ATM" vasitəsilə nağdlaşdırılmış, digər əsas hissəsi isə "Bank 1" və "Bank 2" banklarının mobil bankçılıq tətbiqləri vasitəsi ilə "FM" adlı şəxsin "A" ölkəsinə məxsus "Bank 3" bankındakı "Y" və "Z" nömrəli kartlarına köçürülərək məxaric olunmuşdur.

Həmçinin "ABC" bankına məxsus müvafiq kartdan "Bank 1" bankına məxsus kartlara köçürülən vəsaitlər ilə bağlı "ABC Pay" onlayn ödəmə sisteminə ekvayrinq xidməti göstərən "Bank 2" bankına "Visa" beynəlxalq ödəniş sistemi tərəfindən "chargeback" (əməliyyatın müştərinin xəbəri olmadan icra edilməsi səbəbindən müştərinin pul vəsaitlərinin geri qaytarılması üzrə mübahisələndirmə) tələbi göndərilmişdir.

**İstifadə olunmuş mexanizmlər**

- yerli kredit təşkilatı;
- xarici kredit təşkilatı.

**İstifadə olunmuş alətlər**

- bank kartları;
- mobil bankçılıq;
- onlayn ödəniş sistemi;
- ATM;
- köçürmə.

**İstifadə olunmuş üsullar**

- şəxslərin cüzi məbləğlərə şirniklənd irilərək onların bank kartlarından sui-istifadə olunması;
- riskli bank alətlərindən istifadə olunması.

**İndikatorlar**

- onlayn ödəniş sistemləri vasitəsilə müştəri profilinə uyğun olmayan yüksək intensivlikli və iri dövriyyəyə malik pul vəsaitlərinin mədaxil olunması;
- ödənişlərdə istifadə olunan kartların sahiblərinin müvafiq əməliyyatlardan məlumatlı olmaması;
- "Visa" tərəfindən "chargeback" tələbinin edilməsi.

## Xarici ölkə vətəndaşının həmin ölkə bankına məxsus kart məlumatlarının oğurlanması nəticəsində ona məxsus pul vəsaitlərinin onlayn ödəniş sistemi vasitəsilə yerli ölkənin bank kartlarına köçürülərək nağdlaşdırılması sxemi

